# AZƏRBAYCAN DİLİ

Proqram fənn kurikulumu üzrə təlim nəticələrinə uyğun olaraq V-XI sinif dərslikləri əsasında hazırlanmışdır. İmtahanda fənn kurikulumunun Azərbaycan dili fənni üçün müəyyən etdiyi 4 (**"Dinləyib-anlama və danışma", "Oxu", "Yazı", "Dil qaydaları")** məzmun xəttinə aid alt standartların hamısı üzrə bilik və bacarıqların yoxlanılması mümkün deyil. Bəzi alt standartların yoxlanılması üçün müəyyən vasitələr tələb edildiyindən onlarla bağlı tapşırıqlardan istifadə olunması məqsədəuyğun deyil.

İmtahanda məzmun standartlarının təlim nəticələrində nəzərdə tutulmuş tətbiqetmə, tədqiqetmə, əlaqələndirmə, uyğunluğu müəyyənetmə, fərqləndirmə, fikrini sxemlər, cədvəllərlə ifadəetmə, mühakimə-yürütmə, əsaslandırma bacarıqlarının sistemli şəkildə nümayiş etdirilməsi tələb olunur.

Proqram əsas etibarilə 3 **("Oxu", "Yazı", "Dil qaydaları")** məzmun xətti üzrə alt standartların reallaşdırılması üçün verilmiş materialları əhatə edir.

**"Oxu"** məzmun xətti ilə bağlı, əsasən, aşağıdakılara uyğun bilik və bacarıqlar nümayiş etdirilməlidir: mətni tərkib hissələrinə ayırmaq, onları fərqləndirmək, **giriş, əsas hissə, nəticəyə** görə adlandırmaq, mətnin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirmək, tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirmək, tanış olmayan söz və ifadələrin, eləcə də həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını kontekstə uyğun dəqiqləşdirmək, şərh etmək, mətndəki əsas fikri müəyyən etmək, fikrə münasibətini fakt və məlumatlarla əsaslandırmaq, mətndəki yerinə görə sözlərin informativ, poetik, terminoloji funksiyasını müəyyən etmək, zəngin söz ehtiyatına malik olduğunu nümayiş etdirmək, mətndəki söz və ifadələri üslubi xüsusiyyətinə görə fərqləndirmək, söz və ifadələrə əsasən oxuduğu mətnin üslubunu müəyyənləşdirmək, mətnin hissələrini tezislər şəklində ifadə etmək, mətnin məzmununu xülasə şəklində ifadə etmək, öyrəndiyi söz və ifadələrin üslubi xüsusiyyətlərini izah etmək, söz və ifadələrə əsasən oxuduğu mətnləri üslubi xüsusiyyətlərinə görə müqayisə etmək.

**"Yazı"** məzmun xətti üzrə, əsasən, aşağıdakılara uyğun bilik və bacarıqlar nümayiş etdirilməlidir: dil qaydalarını yazılı nitqə tətbiq etmək, rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirməklə verilmiş mövzuya uyğun mətn hazırlamaq, mövzu ilə bağlı fakt, sitat və dəlillər müəyyən edib yazmaq, plan tərtib etmək, verilmiş mətnin hissələrini plan əsasında məntiqi cəhətdən əsaslandırmaq, mətnin üslubu üzərində işləməklə yazıya düzəlişlər etmək, mətni üslubi və struktur cəhətdən təkmilləşdirmək.

**"Dil qaydaları"** məzmun xətti üzrə isə, əsasən, aşağıdakılarla bağlı bilik və bacarıqlar nümayiş etdirilməlidir:

***Fonetika***. Danışıq səsləri. Saitlərin növləri: qalın, incə; açıq, qapalı; dodaqlanan, dodaqlanmayan. Samitlərin növləri: kar, cingiltili. Saitlərin uzun tələffüzü. Bir sıra sözlərdə "**o**" saitinin [**a**] kimi tələffüzü. Söz sonunda "**b**", "**c**", "**d**", "**g**" samitlərinin tələffüzü. "**K**" samitinin yazılışı və tələffüzü. "**Q**" samitinin yazılışı və tələffüzü. Qoşa samitlə bitən təkhecalı sözlər: eynicinsli qoşa samitlə bitən sözlər, müxtəlifcinsli qoşa samitlə bitən sözlər. Qoşasamitli sözlərin tələffüzü. Söz ortasında yanaşı gələn *tt, kk, pp, qq* samitlərinin tələffüzü. Sözün hərf və səs tərkibi. Ahəng qanunu. Heca. Vurğu. Sözün fonetik təhlili.

**Leksika**. Sözün leksik və qrammatik mənası. Əsas nitq hissələrinin həm leksik, həm də qrammatik mənaya, köməkçi nitq hissələrinin ancaq qrammatik mənaya malik olması. Sözün ilkin – həqiqi mənası. Sözün məcazi mənası. Çoxmənalı sözlər. Omonimlər. Omonim sözlərlə çoxmənalı sözlərin müqayisəsi. Sinonimlər. Antonimlər. Frazeoloji birləşmələr (sabit söz birləşmələri). Terminlər. Sözün leksik təhlili.

***Sözün tərkibi.*** Kök və şəkilçi. Leksik və qrammatik şəkilçilər. Sözə əvvəl leksik, sonra qrammatik şəkilçinin qoşulması. Sözün başlanğıc forması. Şəkilçilərin bir, iki və dörd variantlı olması. Sözönü şəkilçilər. Bitişdirici samitlər (***n, y, s***).

***Söz yaradıcılığı***. Quruluşuna görə sözlərin bir-birindən fərqləndirilməsi. Sadə sözlər. Düzəltmə sözlər. Eyniköklü sözlər. Eyniköklü sözlə eyni sözün müxtəlif formalarının müqayisəsi. Mürəkkəb sözlər. Tərkibində leksik şəkilçi olan mürəkkəb sözlər. Bitişik, defislə və ayrı yazılan mürəkkəb sözlər. Sözün tərkibinə görə təhlili.

***Morfologiya. Əsas və köməkçi nitq hissələri.***

***Əsas nitq hissələri.***

***İsim,*** onun əşya adı bildirməsi. Konkret və mücərrəd isimlər. İsmin quruluşca növləri. Sadə, düzəltmə və mürəkkəb isimlər. Mürəkkəb isimlər və onların yazılışı. Bitişik və defislə yazılan mürəkkəb isimlər. Ümumi və xüsusi isimlər. Tək və cəm isimlər. Toplu isimlər və onların cəm isimlərdən fərqi. İsmin halları. Qeyri-müəyyənlik bildirən yiyəlik hal. Qeyri-müəyyənlik bildirən təsirlik hal. Adlıq, qeyri-müəyyən yiyəlik və qeyri-müəyyən təsirlik halların bir-birindən fərqləndirilməsi. Yönlük halda olan bəzi sözlərin tələffüzü. Çıxışlıq hal şəkilçisinin bəzən fərqli tələffüz olunması. İsmin

mənsubiyyətə görə dəyişməsi. *Mənbə, mövqe, mənafe, tale, mənşə, su, nə* sözlərinin mənsubiyyətə görə dəyişməsi. Bəzi ikihecalı isimlərin kökündə qapalı saitin düşməsi. Xəbərlik şəkilçiləri.

***Sifət***, onun əşyaya aid əlamət və keyfiyyət bildirməsi. Sifətin quruluşca növləri. Sadə, düzəltmə və mürəkkəb sifətlər. Mürəkkəb sifətlər və onların yazılışı. Bitişik və defislə yazılan mürəkkəb sifətlər. Sifətin dərəcələri. Adi dərəcə, azaltma və çoxaltma dərəcələri. Azaltma və çoxaltma dərəcələrinin yaranma yolları.

**Say,** onun əşyanın miqdar və sırasını bildirməsi. Sayın quruluşca növləri. Sadə, düzəltmə, mürəkkəb saylar. Sayın mənaca növləri: miqdar və sıra sayları. Miqdar saylarının növləri: müəyyən miqdar sayları, qeyri-müəyyən miqdar sayları, kəsr sayları. Numerativ sözlər. Numerativ sözlərin işlənmə məqamları. Sayların yazılışı: sözlərlə, ərəb rəqəmləri ilə, Roma rəqəmləri ilə, ərəb rəqəmləri və sözlərin iştirakı ilə. Rəqəmlə ifadə olunan miqdar saylarında şəkilçilərin yazılışı. Sıra saylarının yazılışı. Defislə yazılan mürəkkəb saylar. Saylarla işlənən isimlərin təkdə və cəmdə olması.

***Əvəzlik,*** onun əsas nitq hissələrinin yerində işlənməsi. Əvəzliyin mənaca növləri. Şəxs əvəzlikləri. Şəxs əvəzliklərinin I, II və III şəxsin təkində və cəmində olması. İşarə əvəzlikləri. ***"O"***, ***"bu"*** əvəzliklərindən sonra vergülün işlənməsi. Sual əvəzlikləri. Qeyri-müəyyən əvəzliklər. Təyini əvəzliklər. Əvəzliyin quruluşca növləri: sadə, düzəltmə, mürəkkəb əvəzliklər.

***Feil,*** onun hərəkət və hal-vəziyyəti bildirməsi. Təsdiq və inkar feillər. Feilin şəxsə görə dəyişməsi. Feilin quruluşca növləri: sadə, düzəltmə, mürəkkəb feillər. Mürəkkəb feillər və onların yazılışı. Defislə yazılan mürəkkəb feillər, ayrı yazılan mürəkkəb feillər. Hərəkətin subyekti və obyekti. Feilin qrammatik məna növləri: məlum, məchul, şəxssiz, qayıdış, qarşılıq-birgəlik, icbar növ. Feilin şəkilləri (Feilin təsriflənən formaları). Xəbər şəkli. Xəbər şəklinin həm zamana, həm də şəxsə görə dəyişməsi. Feilin indiki zamanı. Feilin keçmiş zamanı. Feilin gələcək zamanı. Xəbər şəklində olan feillərin yazılışı və tələffüzü. Əmr şəkli. Arzu şəkli. Vacib şəkli. Lazım şəkli. Şərt şəkli.

***İdi, imiş, isə*** köməkçi sözləri (hissəcikləri). *İdi, imiş* köməkçi sözləri (hissəcikləri) və keçmiş zaman şəkilçiləri. *İsə* köməkçi sözü (hissəciyi) və feilin şərt şəkli. Cümlədə *isə* köməkçi sözü (hissəciyi) ilə bağlı vergül işarəsindən istifadə edilməsi.

***Feilin təsriflənməyən formaları.***

Feilin şəxsə və kəmiyyətə görə dəyişməyən formaları: məsdər, feili sifət, feili bağlama. Feilin təsriflənməyən formalarının hər birinin iki nitq hissəsinin xüsusiyyətlərinə malik olması. Məsdərin hərəkət və hal-vəziyyətin adını bildirməsi. Məsdərin feil və ismin bəzi xüsusiyyətlərinə malik olması. Feili sifətin hərəkət, əlamət, keyfiyyət və zaman anlayışı bildirməsi. Feili sifətin feilin və sifətin bəzi xüsusiyyətlərinə malik olması. Feili sifətin feildən düzələn sifətlərdən fərqləndirilməsi. Feili bağlamanın həm feilin, həm də zərfin xüsusiyyətlərinə malik olması.

***Zərf,*** onun, əsasən, hərəkəti müxtəlif cəhətdən izah etməsi. Zərfin quruluşca növləri: sadə, düzəltmə, mürəkkəb zərflər. Mürəkkəb zərflər və onların yazılışı. Bitişik, defislə və ayrı yazılan zərflər. Zərflərin mənaca növləri: tərzi-hərəkət zərfləri, zaman zərfləri, yer zərfləri, kəmiyyət zərfləri. Həm zərf, həm də digər nitq hissələri kimi işlənə bilən sözlər.

***Köməkçi nitq hissələri.***

***Qoşma,*** onun müxtəlif məna çalarları yaradan köməkçi nitq hissəsi olması. Qoşmaların deyilişi və yazılışı. Çoxhecalı qoşmaların ayrı, təkhecalı qoşmaların bitişik yazılması.

***Bağlayıcı,*** onun sözlər, cümlə üzvləri və cümlələr arasında əlaqə yaradan köməkçi nitq hissəsi olması. Bağlayıcılarda vergülün işlənməsi. Mürəkkəb bağlayıcılar və onların yazılışı.

***Ədat,*** onun cümlədə fikrin təsirli olmasına kömək edən köməkçi nitq hissəsi olması. Ədatların orfoqrafiyası. Bitişik və ayrı yazılan ədatlar. Təsdiq və inkar bildirən ədatlarda vergülün işlənməsi.

***Modal söz,*** onun danışanın ifadə etdiyi fikrə münasibət bildirən köməkçi nitq hissəsi olması. Modal sözlərdə vergülün işlənməsi.

***Nida,*** onun hiss-həyəcan ifadə edən köməkçi nitq hissəsi olması. Nidalarda vergül və nida işarəsinin işlənməsi.

Əsas və köməkçi nitq hissələrinin omonimliyi. Köməkçi nitq hissələrinin bir-biri ilə omonimliyi. Köməkçi nitq hissələrinin sinonimliyi. Bəzi bağlayıcı və ədatların müəyyən şəkilçilərdən fərqləndirilməsi.

Sözün morfoloji təhlili.

***Sintaksis.***

***Söz birləşməsi və cümlə.*** Söz birləşməsinin iki və daha artıq müstəqil sözün məna və qrammatik cəhətdən birləşməsindən yaranan dil vahidi olması.

***Söz birləşməsi (sərbəst söz birləşmələri).*** Söz birləşmələrinin əsas və asılı tərəfləri. Əsas tərəfə görə söz birləşmələrinin növləri: ismi və feili birləşmələr. İsmi birləşmələr. Mürəkkəb adlar. Mürəkkəb adların yazılışı. Tərkibindəki bütün sözlərin baş hərfi böyük yazılan mürəkkəb adlar. Yalnız birinci komponentinin baş hərfi böyük yazılan mürəkkəb adlar.

***Feili birləşmələr və onların növləri.*** Əsas tərəfi məsdərlə ifadə olunan feili birləşmələr. Əsas tərəfi feili sifətlə ifadə olunan feili birləşmələr. Əsas tərəfi feili bağlama ilə ifadə olunan feili birləşmələr.

***Sintaktik əlaqələr və onların növləri.***

Tabesizlik əlaqəsi. Tabelilik əlaqəsi. Tabelilik əlaqəsinin yaranmasında ismin hal, mənsubiyyət və xəbərlik şəkilçilərinin rolu. Uzlaşma əlaqəsi. Xəbərin mübtəda ilə şəxsə və kəmiyyətə görə uzlaşması.

***Cümlə üzvləri.***

***Cümlənin baş üzvləri.*** Cümlənin qrammatik əsası.

***Mübtəda.*** Mübtədanın cümlədə haqqında danışılanı bildirməsi. Obyektin mübtəda yerində çıxış etməsi. Mübtədanın ifadə vasitələri.

***Xəbər.*** Xəbərin cümlədə, əsasən, haqqında danışılan barədə məlumat verməsi. Xəbərin ifadə vasitələri. Feili xəbər. Feili xəbərin feilin müxtəlif şəkilləri ilə ifadə olunması. İsmi xəbər. İsmi xəbərin ifadə vasitələri. Suala cavab verməyən *var, yox, lazım, mümkün* və s. kimi sözlərin ismi xəbər kimi işlənə bilməsi. "*Deyil*" sözünün adlara qoşulması ilə yaranan ismi xəbərlər.

***Cümlənin II dərəcəli üzvləri.***

***Tamamlıq.*** Tamamlığın ifadə vasitələri.

***Təyin.*** Təyinin bütün cümlə üzvlərinə aid olması. Təyinin ifadə vasitələri.

***Zərflik.*** Zərfliyin, əsasən, feili xəbərə aid olması. Zərfliyin mənaca növləri. Tərzi-hərəkət zərfliyi. Zaman zərfliyi. Yer zərfliyi. Səbəb zərfliyi. Məqsəd zərfliyi. Kəmiyyət zərfliyi. Zərfliyin ifadə vasitələri.

***Həmcins üzvlər.*** Bütün cümlə üzvlərinin həmcins ola bilməsi. Həmcins üzvlər arasında tabesizlik əlaqəsi. Həmcins üzvləri bir-birinə bağlayan vasitələr. Həmcins üzvlərdə qrammatik şəkilçilərin, köməkçi sözlərin (hissəciklərin) və qoşmaların ixtisarı. Həmcins üzvlərdə ümumiləşdirici sözlər. Ümumiləşdirici sözlərlə bağlı durğu işarələrinin işlənməsi.

***Cümlədə söz sırası.***

***Əlavələr.*** Əlavənin özündən əvvəlki sözü, üzvü aydınlaşdıran söz və ifadə olması. Bütün cümlə üzvlərinin əlavəsinin olması. Əlavələrlə bağlı işlənən durğu işarələri.

***Ara sözlər.*** Ara sözün danışanın ifadə etdiyi fikrə münasibətini bildirməsi. Ara sözlərlə bağlı işlənən durğu işarəsi.

***Xitab.*** Xitabla bağlı işlənən durğu işarələri.

***Cümlə.***

***Cümlənin məqsəd və intonasiyaya görə növləri.*** Nəqli cümlə. Sual cümləsi. Əmr cümləsi. Nida cümləsi.

***Mübtədanın iştirakına görə sadə cümlənin növləri*.**

Müəyyən şəxsli cümlə. Qeyri-müəyyən şəxsli cümlə. Ümumi şəxsli cümlə. Şəxssiz cümlə. Adlıq cümlə.

Söz-cümlə. Söz-cümlələrin ifadə vasitələri.

***Cümlənin quruluşca növləri.*** Sadə cümlənin bir, mürəkkəb cümlənin iki və daha artıq qrammatik əsasının olması.

***Mürəkkəb cümlə.***

***Tabesiz mürəkkəb cümlə.*** Tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında tabesizlik əlaqəsinin olması.

Tabesiz mürəkkəb cümlənin tərkib hissələrini bağlayan vasitələr (intonasiya, tabesizlik bağlayıcıları).

**Tabeli mürəkkəb cümlələr.**

Baş və budaq cümlə. Tabeli mürəkkəb cümlənin tərkib hissələrini bağlayan vasitələr (intonasiya, tabelilik bağlayıcıları, digər vasitələr). Tabeli mürəkkəb cümlədə "ki" bağlayıcısının yeri. Tabeli mürəkkəb cümlələrdə bağlayıcı sözlər. Baş və budaq cümlələrin yeri.

Sintaktik təhlil.

Vasitəsiz nitq. Vasitəsiz nitqdə durğu işarələri (qoşa nöqtə, dırnaq, vergül, tire).

Dialoqlarda durğu işarələri.

Vasitəli nitq.

**Dil,** onun ictimai hadisə olması.

**Yazı,** onun tipləri.

Ədəbi dilin normaları: fonetik norma, leksik norma və qrammatik norma.

**Durğu işarələri**: nöqtə, sual, nida, vergül, üç nöqtə, qoşa (iki) nöqtə, dırnaqlar, tire.

**Dilin üslubi imkanlarının təzahür formaları**: funksional və fərdi (fərdi nitq ünsürləri) üslub.

Bədii üslubun xüsusiyyətləri. Bədii üslubun obrazlı nitq forması olması. Bədii üslubun təzahür formaları. Sözün informativ və poetik funksiyaları. Bədii söz. Bədii təsvir və ifadə vasitələri: ellipsis.

Elmi üslubun xüsusiyyətləri: izah etmək, şərh etmək, nəticə çıxarmaq. Elmi üslubda sözlərin terminləşməsi. Sözün terminoloji funksiyası. Sözün həqiqi mənada işlədilməsinin elmi üslubun əsas xüsusiyyətlərindən biri olması.

Publisistik üslubun xüsusiyyətləri, publisistik üslubun formaları: yazılı və şifahi.

Rəsmi-işgüzar üslubun xüsusiyyətləri.

Məişət üslubunun xüsusiyyətləri.

**Xülasə**. Xülasəyə verilən tələblər.

**Tezis.** Tezisin əsas xüsusiyyətləri.

***Qeyd:*** Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan dilinin orfoepiya normaları"nın təsdiq edilməsi haqqında 18 iyun 2021-ci il tarixli 175№-li qərarında əksini tapan bəzi qaydalar şagirdlərin keçdikləri aşağı sinif dərsliklərində olmadığından buraxılış imtahanında bu mövzularla bağlı tapşırıqlardan istifadə edilməyəcək:

1. tərkibində ***ae, ea, eə, əa, eo, üa, üə, au, ua, ue, uə*** yanaşı saitlərinin işləndiyi sözlərin tələffüzü ilə bağlı;

2. tərkibində ***ov, öv*** hərf birləşmələri olan sözlərin tələffüzü ilə bağlı.

## *ƏSAS ƏDƏBİYYAT SİYAHISI*

1. *R.Ə.İsmayılov, D.N.Cəfərova, G.S.Xudiyeva, X.A.Qasımova. "Azərbaycan dili". 5-ci sinif, Bakı – 2020.*
2. *R.Ə.İsmayılov, D.N.Cəfərova, S.Məmmədova. "Azərbaycan dili". 6-cı sinif, Bakı – 2021.*
3. *R.Ə.İsmayılov, A.X.Rüstəmova, H.F.Allahverdi, S.Məmmədova. "Azərbaycan dili". 7-ci sinif, Bakı – 2022.*
4. *T.M.Hacıyev, S.Q.Bektaşi, M.H.Vəliyeva, Y.İ.Hüseynova. "Azərbaycan dili". 8-ci sinif, Bakı – 2023.*
5. *T.M.Hacıyev, S.Q.Bektaşi, Y.İ.Hüseynova. "Azərbaycan dili". 9-cu sinif, Bakı – 2020.*
6. *T.M.Hacıyev, S.Q.Bektaşi, Y.İ.Hüseynova. "Azərbaycan dili", 10-cu sinif. Bakı – 2022.*
7. *T.M.Hacıyev, S.Q.Bektaşi. "Azərbaycan dili", 11-ci sinif. Bakı – 2023.*

## *ƏLAVƏ ƏDƏBİYYAT SİYAHISI*

1. *"Azərbaycan dili". 5-11-ci siniflər üçün qiymətləndirmə tapşırıqları kitabçaları. "Abituriyent" jurnalının 1-ci nömrəsinin əlavəsi. – Bakı – 2023.*
2. *Orfoqrafiya, orfoepiya lüğəti. DİM – "Abituriyent". Bakı – 2021.*
3. *"Azərbaycan dili". Yeni təhsil proqramı (kurikulum) üzrə imtahanlara hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün vəsait. Bakı – 2019.*
4. *"Azərbaycan dili". Test toplusu. "Abituriyent" jurnalının 1-ci nömrəsinin əlavəsi. Bakı – 2023.*